AZƏRBAYCAN ORDUSU

# Milli Qurtuluş Günü münasibəti ilə Azərbaycan Ordusunda tədbirlər keçirildi



*15 İyun - Milli Qurtuluş Günü münasibəti ilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində silsilə tədbirlər keçirilib. Plana əsasən, şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib. Ulu Öndərin şərəfli həyat yolu və fəaliyyəti haqqında filmlər nümayiş etdirilib, konfranslar, "dəyirmi masa"lar, viktorinalar, eləcə də Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, rayon mədəniyyət müəssisələri kollektivlərinin iştirakı ilə müxtəlif mədəni-kütləvi tədbirlər təşkil olunub.*

15 İyun - Milli Qurtuluş Günü respublikamızın bütün idarə və təşkilatlarında olduğu kimi, "N" hərbi hissəsində də böyük coşqu ilə qeyd olundu.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və hərbi hissənin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə kapitan Fərhad Ömərov əlamətdar gün münasibəti ilə şəxsi heyəti təbrik edərək 15 iyunun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olmasından, 1991-ci ilin oktyabrında Azərbaycanın müstəqillik əldə etməsindən, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzünün respublikada vəziyyəti gərginləşdirməsindən danışaraq bildirdi ki, elə ağır bir dövrdə Azərbaycan dövlətini və xalqını düşdüyü ağır vəziyyətdən çıxaran və onun müstəqilliyini qoruya bilən bir xilaskar, müdrik bir siyasətçi lazım idi. "Həmin şəxs Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev idi. Xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Məhz həmin gün Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, Ümummilli Liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu...".

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti leytenant Günel Dadaşova qeyd etdi ki, ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini qoruyub saxladı, onun iqtisadi və siyasi durumunda böyük dönüş yaratdı. “Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu. Xalqımız Azərbaycan və azərbaycançılıq ideyası ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhranlardan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə öz həllini tapdı. Ölkə həyatının bütün istiqamətlərində - ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatında əsaslı dönüş başlandı. Xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi və bu gün bu dahi insanın böyük zəhməti, əməyi nəticəsində dünya dövlətləri sırasında sayılan bir dövlət olaraq Azərbaycan tanındı. Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir...".



Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndəsi Gülxar Məmmədova vurğuladı ki, artıq illərdir Azərbaycan xalqı 15 iyun gününü əziz bayram kimi qeyd edir və Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir." Ötən illərdə Ümummilli Liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etdi, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq, gələcəyə inamla baxan güclü bir dövlətə çevrildi. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradəsi sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir...".

Tədbir Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin rəngarəng konsert proqramı ilə başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**